

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ *qapısı*

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 124 (23.035)

*6 iyul 2018-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də Dünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesusu qəbul edib.

Prezident İlham Əliyev qeyd edib ki, Dünya Səhiyyə Təşkilatı hər zaman Azərbaycanın təşəbbüslərinə və səylərinə dəstək verib və Tedros Adhanom Qebreyesusun bu səfəri əlaqələrimizin daha da möhkəmlənməsi baxımından önəmlidir. Səhiyyənin Azərbaycanda prioritet sahələrdən biri olduğunu qeyd edən dövlətimizin başçısı son illər ölkəmizdə bu sahədə böyük işlərin görüldüyünü, xeyli sayda yeni xəstəxanaların və tibb mərkəzlərinin tikildiyini vurğulayıb. Görülən bütün bu işlər orta yaş həddinin artması və uşaq ölümünün azalmasına öz müsbət təsirini göstərib. Prezident İlham Əliyev Dünya Səhiyyə Təşkilatı ilə əməkdaşlığın bundan sonra da uğurla davam edəcəyinə əminliyini bildirib.

Tedros Adhanom Qebreyesus Dünya Səhiyyə Təşkilatı ilə Azərbaycan arasında əməkdaşlıqla bağlı görülən işlərdən danışıb. Azərbaycanda səhiyyə sahəsində həyata keçirilən islahatlara, ölkəmizin hər yerində ən müasir tibb ocaqlarının inşa edilməsinə toxunan qonaq bu istiqamətdə əldə edilən nailiyyətləri Azərbaycan dövlətinin və şəxsən Prezident İlham Əliyevin səhiyyəyə göstərdiyi yüksək diqqət və qayğının nəticəsi kimi qiymətləndirib.

Söhbət zamanı əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.



* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də Finlandiyanın xarici ticarət və inkişaf naziri xanım Anne-Mari Viroleyninin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

# Qarabağlar Türbə Kompleksi bərpa olunub



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Qarabağlar Türbə Kompleksinin bərpası və tədqiq olunması haqqında" 2016-cı il 4 iyul tarixli Sərəncamına uyğun olaraq Kəngərli rayonunun Qarabağlar kəndindəki türk-islam mədəniyyətinin nadir nümunələrindən olan Qarabağlar Türbə Kompleksi elmi və tarixi əsaslarla bərpa edilmişdir.

İyulun 5-də Qarabağlar Türbə Kompleksi bərpadan sonra istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Ali Məclisin Sədri çıxış edərək demişdir: Hər bir xalqın mədəniyyətinin inkişafı onun dövlətçilik tarixi ilə bağlıdır. O xalq zəngin mədəniyyətə sahibdir ki, onun böyük dövlətçilik tarixi vardır. Ümummilli liderimiz Heydər Əliyev deyirdi: ***"Dünyada böyük dövlətlər var, amma böyük abidələr yarada bilmirlər. Çünki abidələrin memarlıq qiyməti ilə bərabər, bizim üçün bəlkə daha da böyük qiyməti Azərbaycanın qədim dövlət olmasını göstərməsidir. Bu, təkcə memarlığın zənginliyini yox, dövlətçiliyin nə qədər zəngin olduğunu, nə qədər möhkəm olduğunu da göstərir".***

Ali Məclisin Sədri demişdir: Muxtar respublika ərazisindəki tarixi abidələr – qalalar, saraylar və türbələr dövlətçilik tariximizlə birbaşa bağlıdır. On ikinci əsrdə Azərbaycan Atabəylər dövləti paytaxt şəhər kimi Naxçıvanda mədəniyyətin, xüsusilə Əcəmi Naxçıvani sənətinin inkişafına təkan vermiş, dünya əhəmiyyətli abidələr yaradılmışdır. Açılışına toplaşdığımız Qarabağlar Türbə Kompleksi də Əcəmi Naxçıvani memarlıq məktəbinin davamı, görkəmli memar Əhməd Naxçıvani yaradıcılığının nümunəsi olmaqla bugünkü və gələcək nəsillərə təqdim etdiyimiz dövlətçilik irsimiz və mədəni sərvətimizdir. Abidələr o vaxt tarixin predmetinə çevrilirlər ki, onlar bərpa və tədqiq olunsunlar. Bu gün biz abidələri təkcə mədəni irsimiz kimi yox, həm də dövlətçilik tariximizin bir hissəsi kimi öyrənməliyik. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi Mədəniyyət Nazirliyi ilə birlikdə Qarabağlar Türbə Kompleksində tədqiqat işlərini daha da genişləndirməli, tarixi materiallar toplanmalı, yeni elmi yanaşmalar ortaya qoyulmalı, bura eksponatlarla daha da zənginləşdirilməlidir.



Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu "Qarabağlar Türbə Kompleksi" kitabının nəşrini başa çatdırmalı, abidənin tanıdılması istiqamətində tədbirlər görülməli, maarifləndirmə işi aparılmalıdır. Memarlıq sənəti o zaman inkişaf edir və zənginləşir ki, tarixiliklə müasirlik vəhdətdə götürülsün, ənənə yaşadılsın. Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və Memarlar Birliyi də qədim memarlıq ənənələrini yaşatmalı, tikinti-quruculuq işlərində tarixiliklə müasirliyi əlaqələndirməlidir. Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti Qarabağlar Türbə Kompleksinə turist marşrutlarının açılmasını təmin etməli, abidəyə təhsil müəssisələrinin ekskursiyaları təşkil olunmalı, internet saytlarında və sosial şəbəkələrdə məlumatlandırma işi aparılmalıdır.

Ali Məclisin Sədri Qarabağlar Türbə Kompleksinin bərpasında əməyi olanlara təşəkkürünü bildirmiş, abidənin açılışı münasibətilə tədbir iştirakçılarını təbrik etmişdir.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova demişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tarixi abidələrin bərpası və tədqiqi sahəsində verdiyi tapşırıqlar mədəni irsimizin qorunub saxlanması və təbliğinə geniş imkanlar açmışdır. Son 22 ildə muxtar respublikada 70-ə yaxın tarix və mədəniyyət abidəsi əsaslı təmir və bərpa edilmiş, 1200-dən çox dünya, respublika və yerli əhəmiyyətli abidə pasportlaşdırılaraq qeydiyyata alınmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Qarabağlar Türbə Kompleksinin bərpası və tədqiq olunması haqqında" 2016-cı il 4 iyul tarixli Sərəncamı da xalqımızın çoxəsrlik tarixi-mədəni irsinə diqqət və qayğının növbəti ifadəsidir.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək demişdir ki, muxtar respublikada həyata keçirilən abadlıq və quruculuq işləri sırasında tariximizə, mədəniyyətimizə, tarix-mədəniyyət abidələrinə diqqət və qayğı ön plandadır. Zaman keçdikcə təbii qüvvələrin təsirindən böyük dağıntılara və aşınmalara məruz qalmış tarixi abidələr əsaslı şəkildə bərpa olunaraq xalqımıza qaytarılmışdır. Onlardan biri də Qarabağlar Türbə Kompleksidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamına əsasən yaradılan "Qarabağlar Türbə Kompleksi" tədqiqat qrupu türbə kompleksinin tarixi ilə əlaqədar yeni faktlar aşkara çıxarmışdır. Tədqiqat qrupu Qarabağlar Türbə Kompleksinin tarixi, kitabələri, memarlıq xüsusiyyətləri, etnoqrafiyası, "Qarabağlar" sözünün mənşəyi və etimologiyası, türbə və onun ətrafındakı epiqrafik, arxeoloji və tarix-memarlıq abidələri, keramikası haqqında məlumatlar toplamış, onlar əsasında türbə kompleksi və ətraf ərazilərlə əlaqədar yeni elmi nəticələr əldə olunmuşdur. İsmayıl Hacıyev tariximizin hərtərəfli araşdırılmasına və zənginləşdirilməsinə, ərazidəki tarix və mədəniyyət abidələrinin bərpası, tədqiqi və təbliğinə göstərdiyi yüksək diqqət və qayğıya görə muxtar respublikamızın ziyalıları və elm adamları adından Ali Məclisin Sədrinə minnətdarlığını bildirmiş, Naxçıvan tarixinin tədqiqi, təbliği və hərtərəfli öyrənilməsi sahəsindəki fəaliyyəti bundan sonra daha da gücləndirəcəklərinə söz vermişdir.



*Ardı 2-ci səhifədə*





Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Tarixi abidələrin bərpası üzrə mütəxəssisi Arif Əzizov demişdir: Muxtar respublikada tarixi abidələrin bərpası, tədqiqi və qorunması istiqamətində həyata keçirilən tədbirlər çox böyük əhəmiyyətə malikdir. Bir bərpaçı kimi qeyd etməyi özümə borc bilirəm ki, Naxçıvandakı abidələrin bərpasına heç vaxt bugünkü kimi qayğı göstərilməyib. Mən Sovet dövründə də tarixi abidələrin bərpası sahəsində işləmişəm. Aydın məsələdir ki, o zaman tariximizə, abidələrimizə münasibət heç də ürəkaçan deyildi. Müstəqilliyin ilk illərində də abidələrimiz məhv olmaq təhlükəsi qarşısında idi. Lakin ulu öndərimiz yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra ölkəmizdə bu sahədə ardıcıl tədbirlər görülmüşdür. Bu gün Naxçıvan Muxtar Respublikasında tarixi abidələrin bərpasına xüsusi diqqət yetirilir. Naxçıvan tarixi yalnız kitablara yazılmır, həm də tədqiq olunur, bərpa edilir, öyrənilir. Ali Məclis Sədri tərəfindən bu sahədə görülən işlər böyük vətənpərvərlik, xalqının tarixinə sahiblik və cavabdehlik nümunəsidir. Qarabağlar Türbə Kompleksi Ali Məclis Sədrinin tapşırıq və tövsiyələri əsas götürülərək bərpa edilmişdir. Muxtar respublika rəhbərinin bərpa zamanı bir neçə dəfə abidədə olması, verdiyi dəyərli məsləhətlər bərpaçılar üçün yeni istiqamət, yol göstərmişdir. Əgər bu qayğı və rəhbər göstərişləri olmasaydı, biz bu çətin işlərin öhdəsindən gələ bilməzdik. Arif Əzizov tarixi abidələrimizin bərpası istiqamətində verdiyi tarixi qərarlara görə bərpaçılar adından Ali Məclis Sədrinə minnətdarlıq etmişdir.

Ziyalılar adından çıxış edən şair-publisist, Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov demişdir: Tariximizi yaşadan hər bir abidə mədəni irsimiz, mənəviyyatımız, milli kimliyimizdir. Qədim Naxçıvanda tarixə şahidlik edən çox nadir memarlıq abidələri vardır. Bu gün Naxçıvan böyük bir quruculuq mərhələsinə gəlib çatıb. Aparılan quruculuq tədbirləri tarix-mədəniyyət abidələrimizi də əhatə edib. Əcdadlarımızın min illər boyu bu torpaqda yaratdığı abidələr yenidən bərpa olunaraq xalqımıza qaytarılır, çoxəsrlik tarixi-mədəni irsimiz gələcək nəsillərə çatdırılır. Bu gün Naxçıvan tarixiliklə müasirliyin vəhdətində inkişaf edən nurlu diyardır. Muxtar respublikanın müasir inkişafı, bərpa olunan qədim tarixi yaradıcı insanların – şairlərin, yazıçıların, jurnalistlərin, memarların, rəssamların ilham qaynağına çevrilib. Bütün bunları öz əsərlərimizdə tərənnüm və təbliğ etmək, bu günümüzün tarixini yaratmaq qarşımızda duran əsas vəzifədir.

Sonra Rövşən Hüseynov yazdığı “Qarabağlar türbəsi” şeirini oxumuşdur:

Bu qədim torpağın hər guşəsində,
Göylərə ucalan bir abidəm var.
Bu sənət incisi, daş kitabələr,
Keçmişdən bu günə qalıb yadigar.

Qarşımda ucalır daha bir türbə,
Elimin, obamın nəğməsidir o.
Böyük memar Əhməd Naxçıvaninin
Vətənə, xalqına töhfəsidir o.

Sinəsində neçə əsrin, illərin,
Solmayan əbədi naxışları var.
Elxani hökmdarı, Hülakü xanın
Xanımı Qudinin baxışları var.

Qarabağlar türbəsi, Qoşa minarəm,
Onların hər biri bir salnamədir.
Köksündə bərq vuran yaşıl kaşılar,
Tarixə yazılan bir kitabədir.

Bu daş poemalar mənim kimliyim,
Milli iftixarım və qürurumdur.
Bu daş poemalar mənim tarixim,
Milli varlığımdır, milli ruhumdur.

Durmuşam üz-üzə dərdləşirəm mən,
Başının üstündə küləklər əsib.
Adlayıb üstündən çox qərinələr,
Yolunu qar, boran, duman, çən kəsib.

Az qalıb itirsin möhtəşəmliyin,
Az qalıb itirsin əzəmətini.
Sonda köməyinə El OĞLU gəlib,
Özünə qaytarıb şan-şöhrətini.



İndi sevincinin yoxdur hüdudu,
Söyləyir, yenidən doğulub bu gün.
Unudub keçmişin acılarını,
Çıxarıb qəlbindən atıb büsbütün.

Qarabağlar türbəsi, Qoşa minarəm,
Bu gündən yeni bir həyat yaşayır.
Yazıb sinəsinə Vətən nəğməsin,
Dünənimdən bu günümə daşıyır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 4 iyul tarixli Sərəncamına əsasən Naxçıvan Muxtar Respublikasında tarixi abidələrin bərpasında səmərəli fəaliyyətlərinə görə 1 nəfər “Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə” nişanı, 2 nəfər isə “Rəşadətli əməyə görə” nişanı ilə təltif olunmuşdur.

Ali Məclisin Sədri “Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə” və “Rəşadətli əməyə görə” nişanlarını və vəsiqələrini təltif olunanlara təqdim etmiş, Qarabağlar Türbə Kompleksinin bərpaçılarına hədiyyələr vermişdir.

Sonra Ali Məclisin Sədri və tədbir iştirakçıları Qarabağlar Türbə Kompleksinə baxmışlar.

Məlumat verilmişdir ki, Qarabağlar Türbə Kompleksi qoşa minarə və onları birləşdirən baştağ, xanəgah və türbədən ibarətdir. Kompleksə daxil olan tikililər zaman keçdikcə dağıntıya məruz qalmışdı. Kompleksin əsasını Naxçıvan memarlıq məktəbinin incilərindən olan Qarabağlar türbəsi təşkil edir. Türbənin memarlıq xüsusiyyətləri, kitabələrinin yerinə yetirilməsi texnikası və digər əlamətləri onun Naxçıvan memarlıq məktəbinin nümunəsi olduğunu təsdiq edir. Qülləvarı xatirə tikintilərinə aid olan türbə on iki yarımsilindrin birləşməsindən ibarətdir. Diametri 10 metrə yaxın olan, hazırkı vəziyyətdə hündürlüyü 16 metrə çatan Qarabağlar türbəsinin 4 baştağı vardır. Baştağlarının dördünün də baş tərəfində Qurani-Kərimin “əl-Mumin” surəsindən 16-cı ayənin son hissəsi yazılmışdır. Bərpa zamanı abidənin tarixi görkəmi qorunub saxlanılmışdır.

Kompleksin xanəgah hissəsində eksponatlar nümayiş olunur. Burada xalqımızın həyat tərzini əks etdirən qədim məişət əşyaları, ərazidə aparılan arxeoloji qazıntılar zamanı tapılan maddi-mədəniyyət nümunələri qoyulmuşdur. Xalqımızın tarixini, adət-ənənələrini, məişətini özündə əks etdirən saxsı və mis qablar, daş dəstər və həvəngdəstələr, eyni zamanda toxuculuq nümunələri xalqımızın məişət mədəniyyəti haqqında dolğun təəssürat yaradır. Binadakı təndirlərin yaranma tarixi kompleksin yaranma tarixi ilə eyni vaxta düşüb, xalqımızın həmin dövr üçün əsas məşğuliyyətini, adət-ənənələrini və yaşayış tərzini özündə əks etdirir. Ekspozisiyada Qarabağlar Türbə Kompleksinin bərpadan əvvəl və bərpadan sonra çəkilmiş fotoşəkilləri, o cümlədən kətan üzərində yağlı boya ilə işlənmiş “Qarabağlar türbəsi” rəsmləri, Naxçıvanın tarixini və Qarabağlar Türbə Kompleksi haqqında məlumatları özündə əks etdirən kitablar da nümayiş olunur.

Binada iş otaqları və fond yaradılmış, 5 nəfər işlə təmin olunmuş, kompleks lazımi inventar və avadanlıqlarla təchiz edilmişdir. Həmçinin abidə kompleksinə yeni yol çəkilmiş, ərazidə işıqlandırma sistemləri qurulmuş, yaşıllıqlar salınmışdır.

“Abidələr təkcə mədəni irsimiz deyil, həm də dövlətçilik tariximizdir. Hər bir xalq özünə etibarlı gələcək qurmaq istəyirsə, ilk növbədə, tarixini yaşatmalı, abidələrini qorumalıdır. Çünki xalqın tarixini yaşatmadan onun gələcəyini təmin etmək mümkün deyil”, – deyən Ali Məclisin Sədri Qarabağlar Türbə Kompleksinin internet saytının hazırlanması və məlumatlarla zənginləşdirilməsi, kompleksin muzeylər şəbəkəsinə daxil edilməsi, abidə haqqında elmi araşdırmaların aparılması, monoqrafiya və kitabların yazılması barədə tapşırıqlar vermişdir.

Sonda Ali Məclisin Sədri tədbir iştirakçıları ilə birgə xatirə şəkli çəkdirmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



## Kəngərli rayonunda yeni yaşayış binası inşa olunur





Kəngərli rayonunun Qıvraq qəsəbəsi aparılan kompleks quruculuq işlərindən sonra müasir görkəm almışdır. İstifadəyə verilən sosial obyektlər, yaradılan istehsal müəssisələri qəsəbənin simasını tamamilə dəyişmiş, sakinlərin rahat yaşayışı təmin olunmuş, məskunlaşma artmışdır. Həyata keçirilən tədbirlərin davamı olaraq bu il Qıvraq qəsəbəsində gənc ailələr üçün yeni yaşayış binası tikilir.

İyulun 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yaşayış binasında görülən işlərlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, zirzəmi ilə birlikdə 7 mərtəbədən və 2 girişdən ibarət olan yaşayış binasında əsas tikinti işləri başa çatdırılmışdır. Hazırda binanın fasadında üzləmə işləri görülür, mənzillər təmir olunur. 48 mənzilli binada 2 lift istifadəyə veriləcək, zirzəmidə xidmət sahələri yaradılacaqdır. Mənzillərdən 36-sı ikiotaqlı, 12-si isə 3 otaqlıdır. Binada bütün kommunikasiya xətləri çəkilmişdir.

Yaşayış binasının həyətində də abadlıq işləri aparılacaq, yaşıllıqlar salınacaq, avtomobil dayanacağı istifadəyə veriləcəkdir.

Ali Məclisin Sədri binada tikinti işlərinin bu ilin oktyabr ayına qədər başa çatdırılması barədə müvafiq tapşırıqlar vermişdir.

## Qıvraq qəsəbəsindəki hərbi hissədə zabit-gizir ailələri üçün yaşayış binası tikilir





Muxtar respublikada ordu quruculuğu sahəsində görülən işlər içərisində hərbi qulluqçuların mənzil-məişət şəraitinin yaxşılaşdırılması xüsusi yer tutur. Hərbi hissələrdə istifadəyə verilən yeni yaşayış binaları zabit-gizir ailələrinin rahat yaşayışını təmin edir. Bu il də Kəngərli rayonunun Qıvraq qəsəbəsindəki hərbi hissədə zabit-gizir ailələri üçün yeni yaşayış binası tikilir.

İyulun 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov binada aparılan tikinti işləri ilə maraqlanmışdır.

Bildirilmişdir ki, 44 mənzilli yaşayış binası 5 mərtəbədən ibarət olacaq. Hazırda binanın birinci mərtəbəsində tikinti işləri başa çatdırılmışdır. İki, üç və dördotaqlı mənzillərdə bütün kommunal-məişət şəraiti yaradılacaq, fərdi istilik sistemi qurulacaq, mebel dəstləri və digər ev əşyaları qoyulacaqdır. Binanın həyəti də abadlaşdırılacaq, avtomobil dayanacağı istifadəyə veriləcəkdir.

Sonra Ali Məclisin Sədri Qıvraq qəsəbəsində salınan yeni istirahət parkına da baxmışdır.

Məlumat verilmişdir ki, sakinlərin və hərbçi ailələrinin mənalı istirahətini təmin etmək üçün parkda yaşıllıq və gülkarlıq sahələri ayrılmış, gəzinti yolları çəkilmişdir. Parkda fəvvarə və müasir işıqlandırma sistemi quraşdırılacaq, oturacaqlar qoyulacaq, dayanacaq yaradılacaqdır.

Ali Məclisin Sədri yaşayış binasında və istirahət parkında tikinti işlərinin keyfiyyətlə aparılması, istirahət parkı salınan ərazidə avtomobil yolunun genişləndirilməsi barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Sığorta işinin mövcud vəziyyəti və qarşıda duran vəzifələr müzakirə edilib



***İyulun 5-də Babək Rayon İcra Hakimiyyətində Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi ilə birgə rayonda sığorta işinin mövcud vəziyyəti və qarşıda duran vəzifələr barədə tədbir keçirilib.***

Tədbiri giriş sözü ilə Babək Rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov açaraq rayonda sığorta sahəsində görülmüş işlərdən danışıb. Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin baş direktoru Hikmət Əsgərov muxtar respublikamızın müasir iqtisadi və sosial inkişafında sığortanın rolundan bəhs edib. Vurğulanıb ki, sığorta fəaliyyətinin müasir tələblərə uyğun şəkildə qurulmasında 2011-ci il 30 noyabr tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Muxtar respublikada sığorta fəaliyyəti və qarşıda duran vəzifələr barədə" keçirilmiş müşavirədə verilmiş tapşırıqlar xüsusi əhəmiyyət kəsb edir.

Vurğulanıb ki, ötən müddətdə Babək rayonunda da sığorta müqavilələrinin bağlanılması istiqamətində müəyyən işlər görülüb. Belə ki, rayon üzrə cari ilin yanvar-iyun aylarında, ümumilikdə, 6705 sığorta müqaviləsi bağlanılıb. Onlardan 850-si avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin, 2152-si isə daşınmaz əmlakın icbari sığortası üzrə olub.

Qeyd edilib ki, muxtar respublikamızda sığorta işi sahəsində əldə olunmuş müsbət dinamikanın qorunub saxlanılması və əhali arasında maarifləndirilmə işlərinə diqqət artırılmalıdır.

Tədbirdə, həmçinin könüllü sığortaların, o cümlədən kənd təsərrüfatı sığortasının da əhəmiyyətinə toxunulub. Bildirilib ki, Babək rayonunda bu sahədə fermer və torpaq mülkiyyətçiləri, kənd təsərrüfatı texnikaları sahibləri ilə aparılan maarifləndirmə işləri genişləndirilməlidir. Kənd təsərrüfatı sığortası ilə yanaşı, ev əmlakının, fərdi qəza və digər könüllü sığortaların inkişafı, son nəticədə, vətəndaşların yaşayış səviyyəsinin yüksəldilməsinə xidmət edir.

Tədbirdə rayon Dövlət Sığorta Agentliyinin direktoru Nurlan Səfərov, Polis Şöbəsinin Dövlət Yol Polisi Bölməsinin rəisi, polis baş leytenantı Tural Abuzərli və Yanğın təhlükəsizliyi şöbəsinin rəisi Yaşar Mustafayev icbari sığortalar sahəsində görülmüş işlərin vəziyyəti barədə məlumat veriblər.

**✍ Əli CABBAROV**

***İyulun 4-5-də Naxçıvan şəhərində Beynəlxalq Miqrasiya Təşkilatı tərəfindən "Könüllü qayıdış və reinteqrasiya haqqında dialoqun təşkili üçün regional məsləhətləşmə" mövzusunda tədbir keçirilib. İlk gün "Azərbaycanda miqrasiya və sərhəd idarəçiliyi üzrə potensialların gücləndirilməsi" layihəsi çərçivəsində keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin rəis müavini Elnur Məmmədov və Beynəlxalq Miqrasiya Təşkilatının Vyanadakı ofisinin siyasət məsələləri üzrə baş mütəxəssisi Amr Taha çıxış ediblər.***

## "Könüllü qayıdış və reinteqrasiya haqqında dialoqun təşkili üçün regional məsləhətləşmə" mövzusunda tədbir keçirilib

Xidmət rəisinin müavini çıxışında bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı ilə yaradılan Naxçıvan Muxtar Respublikasının Dövlət Miqrasiya Xidməti 31 may 2010-cu il tarixdən etibarən fəaliyyət göstərir. Miqrantlara və cəmiyyətə fayda gətirən insani və nizamlı miqrasiya prinsipini əsas götürən Dövlət Miqrasiya Xidmətinin əsas fəaliyyət istiqamətlərindən biri müvafiq sahələr üzrə beynəlxalq əməkdaşlığın, əlaqələrin genişləndirilməsidir.

Qeyd olunub ki, Azərbaycan Respublikasının miqrasiya sahəsində çoxcəhətli formada əməkdaşlıq etdiyi əsas tərəfdaşı kimi Beynəlxalq Miqrasiya Təşkilatı çıxış edir. 1996-cı ildə təşkilatın Bakı ofisi yarandıqdan sonra Azərbaycanda miqrasiya sahəsi üzrə müxtəlif yardım və birgə layihələr həyata keçirilib, bu sahədə bir sıra nailiyyətlər əldə edilib.

Diqqətə çatdırılıb ki, readmissiya məsələlərinin tənzimlənməsi istiqamətində ölkələrarası ikitərəfli və çoxtərəfli sazişlər imzalanır. Readmissiya sazişlərinin normal icrası, bir qayda olaraq, dövlətlər qayıdışın təmin olunması üçün proqramlar hazırlayırlar.



Vurğulanıb ki, hazırda Naxçıvanda Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycandakı nümayəndəliyi tərəfindən həyata keçirilən könüllü qayıdış və readmissiyaya dair ikinci beynəlxalq məsləhətləşmə olduqca əhəmiyyətlidir. Layihənin əsas məqsədlərindən biri bu sahədə Azərbaycan Respublikası ilə digər ölkələr arasındakı əməkdaşlığı inkişaf etdirməkdir.

Həmin gün Beynəlxalq Miqrasiya Təşkilatının Vyana ofisinin nümayəndəsi Anna Yansenin, Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin əməkdaşı Nazim Turabovun, Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycan Nümayəndəliyindən İlyas Nəbiyevin və digərlərinin çıxışları olub.

Növbəti gün aparılan panel müzakirələrində Beynəlxalq Miqrasiya Təşkilatının Filippin Nümayəndəliyindən Maryore Rongaleriyosun, Niderland Nümayəndəliyindən Olivye Sprinin və Vyana ofisindən Anna Yansenin moderatorluğu ilə Özbəkistan, Nepal, Filippin, Banqladeş, Niderland, Almaniya və Azərbaycandan olan nümayəndələrin təqdimatında "Qəbul edən ölkə perspektivindən qayıdış modeli. Mənşə ölkəsinin təcrübəsi", "Qəbul edən ölkə perspektivindən qayıdış modeli. Mənşə ölkəsinin və Beynəlxalq Miqrasiya Təşkilatının təcrübələri", "Hökumətlərarası regional əməkdaşlıq" və "Qayıdışın birgə idarə olunması" mövzularında çıxışlar dinlənilib.

**✍ Səbuhi HƏSƏNOV**

*Tarixdən bu günə*

# Naxçıvan sikkələri dünya muzeylərində

***Tədqiqatlar zamanı Azərbaycan ərazisindən külli miqdarda tapılmış sikkələr bir çox alimlərin marağına səbəb olub. Onlar bu sikkələrin zərb olunduğu yer və kim tərəfindən kəsildiyini öyrənərək aydınlaşdırıblar ki, bunların müəyyən bir hissəsi Naxçıvan zərbxanalarında kəsilib. Sikkələr haqqında məlumat almaq, tarixi Azərbaycan torpağı olan qədim diyarda fəaliyyət göstərən zərbxanaların harada yerləşdiyi və bu gün sikkələrin dünyanın hansı muzeylərində sərgiləndiyini öyrənmək üçün Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsinin Muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması kafedrasının müdiri, tarix elmləri doktoru Məmməd Əliyevə müraciət etdik.***



Mis dirhəm Atabəy Özbək (1210-1225) — Gümüş dirhəm Elxani Xudabəndə Məhəmməd (1304-1316)

Məmməd Əliyev qeyd edir ki, antik dövrdə və son orta əsrlərdə Naxçıvan torpağında zərb olunmuş sikkələr vasitəsilə xalqımızın keçmişini öyrənəndə qızıl, gümüş və mis sikkələrin ardıcıl olaraq bir-birini əvəzlədiyini görürük. Bütün bunlar türk soyları və böyük türk hökmdarlarının naxçıvanlıların ulu əcdadları olduqlarını təsdiqləyir. Naxçıvan Muxtar Respublikasının ərazisində kəsilmiş on minlərlə sikkə məlumdur. Bu pulların köməyi ilə öyrənirik ki, Naxçıvan bölgəsində VI əsrdən başlayaraq XVIII əsrin sonuna qədər müxtəlif dövrlərdə fəaliyyət göstərmiş zərbxanalar olmuşdur. Naxçıvan, Əlincə, Qarabağlar, Əlcan, Şərur, Ordubad və Xaraba Gilan (Giran) zərbxanaları buna parlaq misaldır. Zərbxanaların quruluşunu və istehsal prosesinin təşkilini öyrənərkən dövlət məmurlarının adı, vəzifələri və aldıqları əməkhaqları ilə bərabər, bilavasitə zərb işi ilə məşğul olan sənətkarların adı və gördükləri işin müqabilində aldıqları əməkhaqqı da məlum olur.

Məmməd Əliyev təəssüf hissi ilə vurğuladı ki, Sovetlər dövründə üzdəniraq, özgə tarixini oğurlayan, onu saxtalaşdıran Ter-Avetisyan və Lalayan kimi erməni "alimləri" Naxçıvanda olub, Naxçıvan tarixinə aid ən qədim türk tarixini öz xeyirlərinə saxtalaşdırmağa çalışıblar. Onlar bu ərazidən əldə olunmuş sikkələri oğurlamaq və saxtalaşdırmaqdan da yan keçməyib, çoxlu qızıl və gümüş sikkələri əldə edərək Ermənistan muzeylərinə daşıyıblar. Bu proses sonralar da davam etdirilib. Ermənilər təkcə sikkələr deyil, Naxçıvandan saysız miqdarda tarixi materialları da oğurlayıb Ermənistan muzeylərinə aparıblar.

Lakin dünənin və bu günün erməni saxtakarlığına baxmayaraq, görkəmli sikkəşünas alimlərin yaratdığı kataloqlarla tanış olarkən Naxçıvanda kəsilmiş sikkələr haqqında məlumata da rast gəlirik. Belə alimlərdən K.Fren, B.Dora, Berezin, Bartolemey, A.K.Markov, Əhməd Ziya, Y.Paxomov,



D.Y.Kapanadze və başqalarını göstərmək olar.

Tarixçi-alim, muzeyşünas onu da deyir ki, qədim Nuh yurdunun ərazisində vaxtilə olan zərbxanalarda kəsilən müxtəliftipli və formalı qızıl, gümüş və mis sikkələr tədavül vasitəsi olaraq dünyanın bir çox ölkəsinə yayılıb. Bu gün isə həmin ölkələrdə tariximizi, mədəniyyətimizi və mənəviyyatımızı nümayiş etdirir. Belə ki, vaxtilə Sovetlər Birliyinin tərkibində olan respublikaların muzeylərinin fondunda saxlanılan Naxçıvanda kəsilmiş Sasani dövlətlərinə aid olan sikkələr tarixilik baxımından böyük əhəmiyyətə malikdir. Çünki bu sikkələrin üzərində "NAXÇ" yazılması şəhərin tarixi haqqında bəzi məlumatların öyrənilməsinə imkan verir. Kəsilən pullardan məlum olur ki, Naxçıvan ərəblərin tabeliyinə keçənə kimi burada fəaliyyət göstərən zərbxanalarda yüksəkkeyfiyyətli sikkələr istehsal edilib.

Sasani dövlətlərinin süqutundan sonra da Naxçıvanda bir çox yüzilliklər ərzində zərbxanalar olub və burada kəsilən sikkələr dünyanın çoxlu ölkələrinə aparılıb, muzeylərin kolleksiyasının ən qiymətli eksponatına çevrilərək, yurdumuzun qədim tarixini ABŞ, İngiltərə, Fransa, Almaniya, Türkiyə, Rusiya, Gürcüstan və başqa ölkələrdə yaşatmaqdadır. Bu sikkələr zərbxanalarda kəsildiyi tarixi faktlara və ornamentlərinə görə bir daha göstərir ki, Naxçıvan torpağı əzəli və əbədi türk məkanı, azəri türklərinin qədim yaşayış məskəni olub.

Müsahibimin sözlərinə görə, Moskva Dövlət Tarix Muzeyinin sikkəşünaslıq fondunda Naxçıvanda 701-ci il hicri, 1301-1302-ci illər miladi tarixdə Qazan xan tərəfindən kəsilmiş sikkə saxlanılır. Onların hər bir tərəfi eyni formadadır və kəsilmə tarixi arxa tərəfdədir. Arxa tərəfindən mərkəzdə ərəb qrafikası ilə beşguşəli ulduz forması verilib. Sikkənin kənarlarında dini dua yazılıb. Naxçıvanda kəsilmiş bu formalı sikkə Sankt-Peterburq Dövlət Ermitajında da vardır. Ermitajın sikkəşünaslıq fondunda olan 642-ci il hicri, 1244-1245-ci il miladi tarixdə kəsilmiş iki dirhəmin Naxçıvana aid olduğu məlumdur. Birinci sikkənin kəsilməsi və forması çox sadədir, kənar hissəsi kəsilib. Üz tərəfində, dairənin içərisində qarşı-qarşıya çapan iki atlı, atın birinin yanında hədəfə cuman it təsvir edilib. Arxa tərəfində dairənin içərisində üç sıra ərəb yazısı ilə İslam simvolu verilib. Aşağı hissəsində ərəb yazıları vardır. İkinci sikkə birincidən onunla fərqlənir ki, onun arxa tərəfində kəsilmə tarixi əks olunub.

Azərbaycan Dövlət Tarix Muzeyinin sikkəşünaslıq fondunda Elxanilər tərəfindən hicri 734, miladi 1333-1334-cü ildə kəsilmiş sikkə saxlanılır. Onun üz tərəfində iki dairə vardır. Daxili dairədə beş sıra ərəb qrafikası ilə yazı verilib. Üçüncü sırada Əbu Səidin adı uyğur, "Sultan ədalətlidir" kəlməsi isə ərəb dilində yazılıb.

Azərbaycan Tarix Muzeyinin numizmatika fondunda Naxçıvan zərbxanalarında kəsilmiş çox sayda sikkə saxlanılır. Naxçıvan Dövlət Tarix Muzeyinin kataloqundakı beş mindən artıq sikkə arasında Naxçıvan sikkələri çoxluq təşkil edir.

Müxtəlif vaxtlarda Naxçıvan şəhəri və onun ətraf ərazilərindən tapılan çoxsaylı pul dəfinələri sübut edir ki, şəhər orta əsrlər dövründə Yaxın Şərqin və Zaqafqaziyanın bir sıra iqtisadi və siyasi mərkəzləri ilə sıx ticarət əlaqəsi saxlayıb. Maraqlı burasıdır ki, bu sikkələr arasında biz Avropa dövlətlərinin sikkəxanalarının zərb etdiyi pullara rast gəlirik, bu da Naxçıvanın orta əsrlərdə həmin ölkələrlə siyasi, iqtisadi, elmi və mədəni ticarət əlaqələrinin olduğuna bariz nümunədir.

**✍ Ramiyyə ƏKBƏROVA**

## Naxçıvan Muxtar Respublikası üzrə 2018-ci ilin iyun ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/S | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Şahbuz rayonu | 306880 | 32612 | 32730 | 100,4 |
| 2. | Ordubad rayonu | 449180 | 47454 | 47622 | 100,4 |
| 3. | Culfa rayonu | 374852 | 39403 | 39525 | 100,3 |
| 4. | Kəngərli rayonu | 302219 | 31346 | 31391 | 100,1 |
| 5. | Şərur rayonu | 663616 | 69452 | 69510 | 100,1 |
| 6. | Babək rayonu | 723072 | 79237 | 79273 | 100,0 |
| 7. | Sədərək rayonu | 71795 | 7302 | 7303 | 100,0 |
| 8. | Naxçıvan şəhəri | 977519 | 110139 | 110141 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 5271404 | 865399 | 909790 | 105,1 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **9140537** | **1282344** | **1327285** | **103,5** |

*Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində məktəblilərin yay tətilinin səmərəli təşkili məqsədilə yeniyetmə və gənclər arasında boks üzrə Naxçıvan şəhər birinciliyi keçirilib.*

## Boksçular şəhər birinciliyində qüvvələrini sınayıblar

Beynəlxalq Boks Federasiyasının qaydalarına uyğun keçirilən birincilikdə 18 çəki dərəcəsində 50-yə yaxın dəri əlcək sahibi qüvvəsini sınayıb. Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi ilə Boks Federasiyasının birgə təşkil etdiyi birinciliyin yekun nəticəsinə əsasən Tural Kərimsoy (28 kiloqram), Əli Məmmədov (30 kiloqram), Zülfü Tağıyev (32 kiloqram), Ayxan Heydərov (34 kiloqram), Murad Abbaszadə (36 kiloqram), Nicat İsmayılov (40 kiloqram), Kənan Cəfərli (48 kiloqram), Nizami Novruzov (50 kiloqram), Ələsgər Ələkbərov (52 kiloqram), Hüseyn Hüseynov (54 kiloqram), Murad Rəhimov (55 kiloqram), Həsən Hüseynov (57 kiloqram), Ayxan Süleymanov (58 kiloqram), Nadir Cəfərov (60 kiloqram), Nəriman Nağıyev (61 kiloqram), Kamran Allahverdiyev (63 kiloqram), Pərvin Sadiqov (66 kiloqram) və Həsən Babayev (+70 kiloqram) öz çəki dərəcələrində bütün rəqiblərini üstələyərək qalib adını qazanıblar.

Sonda hər çəki dərəcəsində yer tutan idmançılara diplomlar təqdim olunub.

**✍ Ceyhun MƏMMƏDOV**

## Meyvə və tərəvəz məhsullarının soyuducu anbarlara tədarükü ilə bağlı elan

Muxtar respublikada fəaliyyət göstərən kənd təsərrüfatı məhsulları istehsalçılarının nəzərinə çatdırılır ki, tələbatdan artıq istehsal edilən meyvə və tərəvəz məhsulları soyuducu anbarlara aşağıdakı qiymətlərlə qəbul olunur.

| S/s | Məhsulun adı | Ölçü vahidi | 2018-ci il üçün nəzərdə tutulan qiymət |
|---|---|---|---|
| 1.1 | Kartof I növ | kq | 40 qəpik |
| 1.2 | Kartof II növ | kq | 25 qəpik |
| 1.3 | Kartof I və II növ (50% – 50% qarışıq) | kq | 30 qəpik |
| 2.1 | Soğan I növ | kq | 35 qəpik |
| 2.2 | Soğan II növ | kq | 25 qəpik |
| 2.3 | Soğan I və II növ (50% – 50% qarışıq) | kq | 30 qəpik |
| 3.1 | Alma I növ | kq | 80 qəpik |
| 3.2 | Alma II növ | kq | 50 qəpik |
| 3.3 | Alma I və II növ (50% – 50% qarışıq) | kq | 60 qəpik |

Məhsulları tədarük edən soyuducu anbarların ünvanını və əlaqə telefonlarını bildiririk.

| S/S | Hüquqi və fiziki şəxsin adı | Ünvanı | Əlaqə nömrələri |
|---|---|---|---|
| 1. | "Naxçıvan Meyvə Tərəvəz Məhsulları" MMC | Naxçıvan şəhəri, Ə.Qəmküsar küçəsi | (050) 516-45-61 |
| 2. | "Gəmiqaya Qida Məhsulları Sənaye Kompleksi" MMC | Naxçıvan şəhəri, N.Tusi küçəsi | (051) 831-85-85 |
| 3. | "Yusifoğlu" firması | Şərur rayonu, Məmmədsabir kəndi | (070) 222-13-67 |
| 4. | Fiziki şəxs Ramiz Həsənov | Şərur rayonu, Danyeri kəndi | (050) 213-55-54 |
| 5. | Fiziki şəxs Gültəkin Əsədova | Şərur rayonu, Düdəngə kəndi | (050) 668-63-42 |
| 6. | Fiziki şəxs Fizuli Məhərrəmov | Şərur rayonu, Yuxarı Aralıq kəndi | (070) 314-13-72 |
| 7. | Fiziki şəxs Əhəd Camalov | Şərur rayonu, Yuxarı Aralıq kəndi | (070) 930-09-79 |
| 8. | Fiziki şəxs Sucəddin Seyidov | Şərur rayonu, Çərçiboğan kəndi | (050) 687-70-27 |
| 9. | Fiziki şəxs Yaqub Tağıyev | Şərur rayonu, Cəlilkənd kəndi | (077) 329-29-30 |
| 10. | Fiziki şəxs Qafar Zeynalov | Şərur rayonu, Cəlilkənd kəndi | (050) 366-77-89 |
| 11. | Fiziki şəxs İbrahim Qasımov | Şərur rayonu, Püsyan kəndi | (050) 314-14-21 |
| 12. | Fiziki şəxs Qəşəm Kərimov | Şərur rayonu, Qaraburc kəndi | (050) 314-14-13 |
| 13. | Fiziki şəxs Vəli Zamanov | Şərur rayonu, Sərxanlı kəndi | (070) 354-70-24 |
| 14. | Fiziki şəxs Elxan Cabbarov | Ordubad şəhəri, Şəhriyar qəsəbəsi | (050) 383-70-89 |
| 15. | Fiziki şəxs Müsrza Əliyev | Ordubad şəhəri, Novruz Rzayev küçəsi | (050) 325-87-77 |
| 16. | "Naxçıvan Meyvə Tərəvəz Məhsulları" MMC | Şahbuz şəhəri, 28 May küçəsi | (050) 516-45-61 |
| 17. | "Naxçıvan Meyvə Tərəvəz Məhsulları" MMC | Sədərək rayonu, Sədərək kəndi | (050) 516-45-61 |
| 18. | Əlixanlı Əli Ramiz oğlu | Kəngərli rayonu, Yurdçu kəndi | (077) 633-74-74 |

**Qeyd:** Kənd təsərrüfatı məhsullarının istehsalçıları yuxarıda qeyd edilən sahibkarlara müraciət edib icarə müqaviləsi əsasında soyuducu anbarlarda öz məhsullarını saxlaya bilərlər.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi***

***İtmişdir***

Naxçıvan şəhəri, "Azərbaycan" küçəsi, döngə 5, ev 3-də yaşamış Hüseynov Lətif Həsən oğlunun adına olan evin 0046439 seriya nömrəli çıxarışı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Mətanət Məmmədova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 482